2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Ramiz İbrahimov, Baxşeyiş Əsgərov, İradə Hacıyeva və İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 oktyabr 2015-ci il tarixli 68 saylı və 10 oktyabr 2015-ci il tarixli 80, 83, 85, 86 saylı müraciətlər üzrə

# BİRGƏ RƏYİ

Bakı şəhəri 11 oktyabr 2015-ci il

Biz, ekspert qrupunun üzvləri Ramiz İbrahimov, Baxşeyiş Əsgərov, İradə Hacıyeva və İlkin Şahbazov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 34 saylı Xətai ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Əhəd Fərhad oğlunun 9 oktyabr 2015-ci ildə, həmin seçki dairəsindən qeydə alınmış namizədlər İbrahimov Cəlal Ağarza oğlu, Qasımzadə Nicat Ərrəhman oğlu, Cəfərov Mahir Hüseyn oğlu və qeydə alınmış namizəd Qurbanov Elçin İbad oğlunun səlahiyyətli nümayəndəsi Sadıxov Əliyar Dünyamalı oğlunun 10 oktyabr 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərini araşdıraraq aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən, eyni seçki dairəsindən və eyni mübahisə predmetinə aid olduğundan ekspert qrupunun əlaqələndiricisi(koordinatoru) məlumatlandırılmaqla bir icraatda birləşdirilərək araşdırılmış və birgə rəy verilmişdir.

Namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Əhəd Fərhad oğlu 9 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş, qərarın ləğv edilməsini və həmin seçki dairəsi üzrə namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış İbrahimov Cəlal Ağarza oğlu, Qasımzadə Nicat Ərrəhman oğlu, Cəfərov

Mahir Hüseyn oğlu və qeydə alınmış namizəd Qurbanov Elçin İbad oğlunun səlahiyyətli nümayəndəsi Sadıxov Əliyar Dünyamalı oğlu 10 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına ayrı-ayrılıqda müraciət edərək deputatlığa namizəd Məmmədli Əhəd Fərhad oğlunun imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərinin səthi yoxlanıldığını və bunun nəticəsində onun deputatlığa namizəd kimi qeydə alına biləcəyi ehtimalını iddia edərək həmin sənədlərin daha ciddi araşdırılmasını xahiş etmişlər.

Namizəd Ə.F.Məmmədli müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 34 saylı Xətai ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində 550 seçici imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyası ona imzaların yoxlanması barədə məlumat verməmiş, imzaların yoxlanılmasında iştirakı təmin edilməmiş, iclas barədə məlumat gec verildiyindən iclasda iştirak edə bilməmiş, nəticədə 113 seçici imzası müxtəlif əsaslarla etibarsız hesab edilərək əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmiş, iclasda iştirakı təmin edilmişdir. O, dairə seçki komissiyasının iclasında iştirak etdiyini etiraf etmiş, həmin gün qərarın surətinin ona verilmədiyini göstərmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından təqdim edilmiş 7 oktyabr 2015-ci il tarixli aktdan və 10 oktyabr 2015-ci il tarixli arayışdan müəyyən edilir ki, deputatlığa namizəd Ə.F.Məmmədli iclasa dəvət edilmiş, iclasda iştirak etmiş, lakin həmin gün işçi qrupunun protokol və rəyini, həmçinin namizəd kimi qeydə alınmasından imtinaya dair qərarın surətini götürməkdən imtina etmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 10 oktyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, Ə.F.Məmmədlinin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi 11 imza vərəqələrində olan 550 seçici imzalarından 157 seçici imzası etibarsız hesab edilmişdir. Yerdə qalan etibarlı hesab edilən imzaların sayı namizədin qedə alınması üçün kifayət etmədiyindən onun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının mübahisələndirilən qərarı əsaslı sayılmalıdır.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyasının qərarı müəyyən qüsurlarla tərtib edilsə də araşdırılmış bütün hallar və əsaslar qərarda əks etdirildiyindən, göstərilən əsaslarla deputatlığa namizəd Ə.F.Məmmədlinin namizəd kimi qeydə alınmasından imtina edilməsi ilə bağlı düzgün nəticəyə gəlinmişdir və həmin qərarın ləğv edilməsi üçün əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə

əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Göstərilənlərə əsasən deputatlığa namizəd Ə.F.Məmmədlinin şikayəti əsassız olduğundan təmin edilməməli, 34 saylı Xətai ikinci dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli 16 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış C.A.İbrahimov, N.Ə.Qasımzadə, M.H.Cəfərov qeydə alınmış namizəd E.İ.Qurbanovun səlahiyyətli nümayəndəsi Ə.D.Sadıxovun müraciətləri təmin edilmiş hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 60-cı, 112-ci, 112-1-ci, 147-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldik :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 34 saylı Xətai ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Əhəd Fərhad oğlunun 9 oktyabr 2015-ci il tarixli 68 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli 16 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış İbrahimov Cəlal Ağarza oğlu, Qasımzadə Nicat Ərrəhman oğlu, Cəfərov Mahir Hüseyn oğlu və qeydə alınmış namizəd Qurbanov Elçin İbad oğlunun səlahiyyətli nümayəndəsi Sadıxov Əliyar Dünyamalı oğlunun 10 oktyabr 2015-ci il tarixli 80, 83, 85, 86 saylı müraciətləri təmin edilmiş hesab edilsin.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvləri: Ramiz İbrahimov

Baxşeyiş Əsgərov

İradə Hacıyeva

İlkin Şahbazov